**Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında 2017-ci il iyunun 27-də Varşava şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Polşa Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 noyabr 2017-ci il
1648

**Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq bir tərəfdən Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə digər tərəfdən Polşa Respublikasının infrastruktur və tikinti naziri və dəniz iqtisadiyyatı və daxili naviqasiya naziri:

1) 2017-ci il 27 iyun tarixində Varşava şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə"ni;

2) 2005-ci il 30 mart tarixində Varşava şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"i;

3) 1997-ci il 26 avqust tarixində Varşava şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında mülki hava daşımaları haqqında Saziş"i;

4) 2013-cü il 14 noyabr tarixində Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Polşa Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş"i;

5) 2015-ci il 20 may tarixində Varşava şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında dəniz nəqliyyatına dair Saziş"i nəzərə alaraq;

Tərəflər arasında qarşılıq prinsipi əsasında qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək və gücləndirmək məqsədi ilə;

nəqliyyat və nəqliyyat infrastrukturu sahələrində beynəlxalq təcrübə mübadiləsinin faydalarını və həmin sahələrin hər iki dövlətin iqtisadi və sosial inkişafı üçün əhəmiyyətini nəzərə alaraq;

nəqliyyat dəhlizlərinin inkişafının faydalarını, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişaf etdirilməsinin perspektivlərini və intermodal daşımaların əhəmiyyətli inkişafını nəzərə alaraq;

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Anlaşma Memorandumunun məqsədi**

Bu Anlaşma Memorandumunun məqsədi Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında qabaqcıl təcrübə və səriştə mübadiləsi və müvafiq sahələrdə birgə proqramların həyata keçirilməsi yolu ilə nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığı gücləndirməkdir.

Maddə 2
**Əməkdaşlıq sahələri**

Tərəflər üçün əsas əməkdaşlıq sahələrinə daxildir:

1) Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna xüsusi diqqət yetirilməklə, Azərbaycan və Polşanın nəqliyyat-logistika qovşaqlarını özündə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri çərçivəsində dəmir yolu və avtomobil nəqliyyatının inkişaf etdirilməsi məqsədi ilə əməkdaşlıq;

2) hər iki dövlətdə nəqliyyat infrastrukturunun tikintisi, avtomobil nəqliyyatı, dəmir yolu nəqliyyatı, hava nəqliyyatı və dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən sahibkarların qarşılıqlı təşviqi sahəsində əməkdaşlıq;

3) təcrübə və informasiya mübadiləsi də daxil olmaqla, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Polşa limanları arasında qarşılıqlı qərara alınmış fəaliyyət sahələrində əməkdaşlığın inkişaf etdirilməsi;

4) nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş layihələrin icrasının sürətləndirilməsi məqsədi ilə mövcud və planlaşdırılan qanunvericilik fəaliyyətlərinin inkişafı üzrə təcrübə mübadiləsi;

5) nəqliyyat infrastrukturunun maliyyələşdirilməsi və inkişafı ilə məşğul olan beynəlxalq maliyyə institutlarının vasitələrinin cəlb olunması və istifadəsi üzrə əməkdaşlıq;

6) nəqliyyat sistemində istifadə olunan yeni texnologiyaların tətbiqi də daxil olmaqla, yol infrastrukturunun inkişafı və yol infrastrukturu ilə bağlı layihələrin icrası üzrə əməkdaşlıq;

7) nəqliyyatın səbəb olduğu çirklənmə hallarının məhdudlaşdırılması və aradan qaldırılması sahəsində təcrübə və mütəxəssis biliklərinin mübadiləsi;

8) hava nəqliyyatı şəbəkəsinin inkişafını nəzərə alaraq, hava nəqliyyatı və hava limanları sahəsində əməkdaşlıq;

9) məmurlar, yuxarı rəhbərlik və texniki heyət üçün aşağıdakı sahələr üzrə təlimlərin təşkili:

a) ərazi idarəetmə qurumları ilə nəqliyyat infrastrukturu layihələrinin icrası və planlaşdırılmasının əlaqələndirilməsi;

b) nəqliyyat üzrə layihələrin əhatəli şəkildə hazırlanması prosesi;

c) nəqliyyat infrastrukturu layihələri üçün hüquqi, iqtisadi və maliyyə çərçivəsinin hazırlanması;

d) nəqliyyat infrastrukturu layihələri üçün ətraf mühitə təsirin qiymətləndirilməsi;

e) əsas ictimai yollar şəbəkəsinə texniki xidmətin göstərilməsi və idarə edilməsi prosesləri;

f) hava limanlarının idarə edilməsi və aviasiya təhlükəsizliyi;

g) dövlət qurumları və özəl müəssisələr tərəfindən dəniz limanlarının idarə edilməsi.

Maddə 3

**Əməkdaşlıq formaları**

1. Layihələr, əməkdaşlıq metodları və vasitələri ilə əlaqədar qərarlar hər dəfə Tərəflərin səlahiyyətli nümayəndələri arasında dialoq və qarşılıqlı razılıq əsasında verilir.

2. Əməkdaşlığın qəbul edilmiş formaları xüsusilə aşağıdakılara imkan verir:

a) 2017-ci il 27 iyun tarixində Varşava şəhərində imzalanmış “Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə” əsasında Azərbaycan Respublikası və Polşa Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya çərçivəsində yaradılacaq işçi qrupların fəaliyyəti çərçivəsində Anlaşma Memorandumunda müəyyən edilmiş sahələr üzrə Tərəflərin idarəçiliyində olan dövlət qurumları və müəssisələr arasında əməkdaşlıq;

b) iclasların, seminarların və təlimlərin təşkili;

c) mövcud mütəxəssis və məmur mübadiləsi sistemləri və ya hər bir hal üzrə ayrıca təşkil olunacaq belə sistemlər vasitəsilə ikitərəfli məsləhətləşmələr. Tərəflər bu kimi fəaliyyət istiqamətlərinə dair razılığa gəlirlər.

Maddə 4

**Əməkdaşlığın xülasəsi**

Azərbaycan Respublikası və Polşa Respublikası arasında nəqliyyat və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığın xülasəsi Tərəflərin ərazilərində növbə ilə ən azı ildə bir dəfə bu Anlaşma Memorandumunun 3-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq yaradılacaq nəqliyyat və logistika üçün işçi qrupun fəaliyyətləri çərçivəsində həyata keçirilir.

Maddə 5

**Digər beynəlxalq öhdəliklər**

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin Tərəf olduqları beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir. Bu Anlaşma Memorandumu Beynəlxalq müqavilələr hüququ haqqında Vyana Konvensiyasında təsbit olunmuş qaydaların predmeti deyildir və onun tətbiqi yalnız Tərəflərin milli qanunvericiliyi ilə tənzimlənir.

Maddə 6

**Mübahisələrin həlli**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Maddə 7

**Əlavə və dəyişikliklər**

Bu Anlaşma Memorandumunun müddəalarına, Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumunun 8-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokolla rəsmləşdirilən əlavə və dəyişikliklər edilə bilər. Belə protokollar bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsidir.

Maddə 8

**Qüvvəyəminmə, müddət və ləğvetmə**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların tamamlanmasını təsdiq edən Azərbaycan Tərəfinin diplomatik kanallar vasitəsilə göndərdiyi yazılı bildirişinin Polşa tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Bu Anlaşma Memorandumu qeyri-müəyyən müddətə bağlanır və Tərəflərdən hər hansı biri ən azı 6 (altı) ay əvvəl bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə digər Tərəfə bildiriş vermədiyi təqdirdə qüvvədə qalacaqdır.

Varşava şəhərində 2017-ci il 27 iyun tarixində, hər biri Azərbaycan, polyak və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə hər hansı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi adından** | **Polşa Respublikasının infrastruktur və tikinti naziri adından** |

*(imza)*

*(imza)*

**Polşa Respublikasının**
**dəniz iqtisadiyyatı və**
**daxili naviqasiya naziri adından**

*(imza)*